**ƏYYUB SABİROĞLU**

# Şəfəq dolu bir nəğmə

«Elm və təhsil»
Bakı - 2013

***Babam Taib Əfəndi Zeyxuri və bacım Mileyxanım Quliyevanın əziz xatirələrinə***

**Редактор:**
*Tapdıq Əlibəyli*

Əyyub Sabiroğlu. Şəfəq dolu bir nəğmə.
Bakı ,“Elm və təhsil”, 2013, 92 səh.

*Китабда Əyyub Sabiroğlunun мцхтялиф иллярдя йаздыьы инсани-яхлаги və мяняви дяйярляри тялгин, ülvi məhəbbəti tərənnüm едян шеирляри топланмышдыр.*

$\frac{4702000000}{N098-2013}$ ***грифли няшр***

**© «Елм вя тящсил», 2013**

# DUYĞULARIN ŞƏFƏQLƏNDİYİ POEZİYA

“Sevgisiz ürəyə həmdəm – kədərdir, Sevgisiz insanın ömrü hədərdir.” Özündə qüdsiyyət, sədaqət, ülviyyət ehtiva edən bu misralar, poetik yaradıcılığı-qaynar ilhamının, güclü müşahidə və poetik ümumiləşdirmə bacarığının, püxtələşmiş şair qələminin bəhrəsi olan Əyyub Sabiroğluna **(**Əyyub Sabir oğlu Taibov) məxsusdur. Məncə, bu fikir onun yaradıcılığı üçün çox rəmzi və xa-rakterikdir. Çünki Ə. Sabiroğlu nədən yazır –yazsın, onun şeirlərinin əsas ruhunu sevgi təşkil edir : Ulu Yaradana sevgi, təbiətə sevgi, torpağa sevgi, insanlığa sevgi, Sözə sevgi... Zəngin Azər-baycan ədəbi ənənələrinə dayaqlanan bu poeziya Türk dünyasının ünlü söz sənətkarı, fikir daşı-yıcısı Çingiz Aytmatovun “...unutmaq olmaz ki, ənənələr yalnız və yalnız müasirliyin gərdişində, yeni yaradıcıların yeni sözündə yaşayır” deyiminə bir

daha üz tutmağa rəvac verir. Fikrimə Ə.Sabiroğlunun poeziyasevərlərə bir ərməğan olacaq söz çələnginin işığında aydınlıq gətirmək istəyindəyəm.

Onun poetik yaradıcılığının bir qismini özündə əxz edən bu kitab metaforik bir ad daşıyır: "Şəfəq dolu bir nəğmə". Kitabın mətn palitrasında rəngarəng şeirlərin aurası ilə üzləşirik. Ovqat dəyişkənliyinin kontekstində bir harmoniya, bütövlük duyulmaqdadır. Bəs nədir bu əhvali-ruhiyyəni, haləti şərtləndirən? Doğru-dürüst cavaba kitabın adını "təfsir" etməklə nail olmaq olar. Şair şeirlərini küll halda "şəfəq dolu bir nəğmə" adlandırır. Bəs bu şeirlərin bir nəğmə olmasını və şəfəq dolu nəğməliyini şərtləndirən cəhət nədir?

Diqqət edək: şəfəq-günəşin doğan və qürub vaxtı üfüqü boyadığı qızartı; müvazi olaraq şeirin bədii faktı, təsirlənmə obyektinin biri sevinc- dan yerinin sökülməsi, digəri isə kədər- günəşin qürub etməsidir. Duyğunun qoşa qanadı olan sevinc-kədər şairin könül nəğməsinin notlarıdır. Bu şeirlər duyğu "melodiyası", könül nəğməsidir. Zənnimcə, maraqlı və məharətlə istifadə olunmuş bir müqayisədir.

...Söhbətlərimizin birində Əyyub Sabiroğlu təvazökarlıqla: -Biz torpaq üzərində qurub-yaradırıq, sizsə kağız üzərində,- deyə təbəssüm etdi... Nə ğözəl ki, Ə.Sabiroğlu həm də kağız üzərində yaradır: sözün sehrinə bələnə-bələnə, ürəyinin hərarətini misralara köçürə- köçürə.

Onunla tanışlığımız neçə illər öncəyə təsadüf edir. Elə bu tanışlığa körpü olan da məhz Sözdür. O söz ki, ürəyi daim qurub -yaratmaq eşqiylə döyünən Əyyub Sabiroğlu uzun illərdir ki, inşaat sahəsində işləməsinə baxmayaraq, ondan ayrı düşməyib, duyğuların işığında ona üz tutub, işığında pərvanəyə dönüb. Yeri gəlmişkən qeyd edim ki, o, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu (Azərbaycan Memarlıq və İnşaat Universiteti) bitirib. İnşaat sahəsindəki səmərəli fəaliyyətinə görə «Tərəqqi» medalı ilə də təltif edilmişdir. Ədəbi yaradıcılığa isə erkən yaşlarından həvəs göstərib. Şeirləri 1977-ci ildən dövri mətbuatda dərc olunur. «Məslək» mükafatı laureatıdır.

Onun yaradıcılığında bir-birini tamamlayan insan və təbiət gözəlliklərinin vəhdəti poetik mahiyyət kontekstində dolğun ümumiləşdirmələrlə əks

etdirilmişdir. Gənclik illərində yazdığı şeirlərin birində deyir:

«Məlixan meşəsi» bilmirəm nədən
Pərişan görünür gözümə bu gün?!
Bəlkə, çoxdan bura gəlmədiyimdən
Qonmuş yarpağına kədər söyüdün?

Qarlı–boranlı bir qış günü yolum Əyyub Taibovun rəhbərlik etdiyi tikinti idarəsinin inşa etdiyi baza- kompleksə düşmüşdü. Hər tərəfi ağ örpəyə bürümüş axşamdan yağan qar dan yeri ağarana doğru səngisə də, gündüz çovğun başlamışdı.

Tikinti obyekti Xəzərin sahil ərazisində olduğundan şaxtalı hava daha da dondurucu və kəsərli idi. Dənizdən əsən güclü külək getdikcə şiddətlənir, quduzlaşmış dalğalar qəzəblə sahilə hücum çəkməkdəydi...Belə bir hava şəraitində Əyyub müəllim özünün isti iş otağında deyil, açıq havada iş başında idi. Əvvəlcə, təəccübləndim, düşünəndə ki, axı o, şairdir, fikrim dürüstləşdi: elə belə də olmalıdır... Bu sətirləri yazarkən onun vaxtilə qışla bağlı qələmə aldığı maraqlı bir bəndi yada düşdü:

Quduz bir vəhşi tək ulayır külək,
Göstərmək istəyir sanki gücünü.
Kimi ləzzət alır şuba geyərək,
Kimi tək pencəkdə soyuq qış günü.

Təbiət şairi kimi tanıdığımız Musa Yaqubun təbirincə desək: «Əslində şeir olan yerdə gərək əlavə danışmayasan, şair haqqında izah verməyəsən. Çünki şairin fikri də, duyğu və düşüncəsi də, sevgisi də onun şeirlərindədir...»

Bu dilsiz yollara dikib gözümü,
Yolunu gözlərəm hər səhər, axşam.
Məndədir Əyyubun səbri, dözümü,
Müqəddəs bir eşqə arxalanmışam.

Aşiqanə görünüşlü, bahar müjdəli bənövşə mənəvi rişələrlə dühaların söz çeşməsindən su içən Əyyub Sabiroğlunu da özünə bənd edib. Bu gül ilham pərisinin qanadlarında öz lətif ətrini şairin söz ətrinə qatıb. Düşüb səhər- səhər çənə...az qalıb danışıb-dinə... «Tanış mövzuda təzə söz deyə bilib», -deyə biləcəyimiz «Bənövşə» qoşmasında Ə.Sabiroğlu yazır:

Büllur şeh damlası yanağındadır,
Bir şeyda bülbülün sorağındadır.
«Söyüdlü çeşmə» nin qırağındadır,
Düşüb səhər- səhər çənə bənövşə.

O «Söyüdlü çeşmə» ki, Ə.Sabiroğlunun dünyaya göz açdığı (8 aprel 1956-cı il ), boya- başa çatdığı, ilk heyrətini pıçıldadığı doğma yurdun - Xaçmaz rayonunun Xanoba kəndinin füsunkar guşəsidir.

Əlimi uzatdım, onu qoparam,
Görüşə gedəndə yarçün aparam,
Mənə qəmli- qəmli baxdı bu zaman,
Az qaldı danışa, dinə bənövşə.

Sanki misralaradan kövrək, həsas bir ürəyin döyüntüləri eşidilir. Şairin bədii idrakının, poetik təfəkkürünün qaynaqları xalq ruhundan süzülüb gəlir. Şeirin ovqatına qatıldıqca yaddaşımda poetik sözümüzün cəfakeşlərindən olan, Türk dünyasının tanınmış qələm sahibi Məmməd Aslanın «Şairliyi

bahardan, bənövşədən öyrəndim...», - deyimi yarpaqlanır.

Əyyubam, gözəllik aşiqiyəm mən,
Könlüm ilham alar güldən- çiçəkdən.
O gün ki vuruldum sənə ürəkdən,
Doludur söz ilə sinə, bənövşə.

Sinəsi sözlə dolu olan Əyyub Sabiroğlunun süjetli şeirləri də maraq doğurur. Təsvir olunan «süjet xətti» sadə və «boyasız» şəkildə öz poetik səciyyəsini, bədii həllini tapır. Bu sadəlik şeiri bəsitləşdirmir, əksinə zənginləşdirir. Diqqət edək:

Bir gənc öz əhdinə çıxdı vəfasız,
Uzaq bir diyarda ailə qurdu.
Yolunu həsrətlə gözlədi bir qız,
Ömrünü təkliklə üz-üzə durdu.

Bəllidir ki, bədii ədəbiyyatın təsir qüvvəsi onun dili ilə, ifadə tərzi ilə şərtlənir.

Əbəs yerə deyildir ki, xalq, ruhuna yaxın olan ədəbi irsi sevə-sevə yaddaşında yaşadır. Dilin ədəbi müstəvidə səciyyəvi cəhəti, xəlqiliyi Əyyub

Sabiroğlunun yaradıcılığında önəm daşıyan amildir; dili təbii və səmimidir. Bu cəhət onun poeziyasını bütövlükdə müşayiət edir.

Meşədə bir güllə səsi eşitdim, -
Bir cüyür balası anasız qaldı.
Meşədə bir güllə səsi eşitdim, -
Bir kəklik yuvası kimsəsiz qaldı.

Ə.Sabiroğlunun yüksək ideya xüsusiyyətlərinə, kolorit gözəlliyinə malik olan şeirlərinin poetik gücü, həmçinin ictimai-milli siqləti yetərincədir.

Açılan gülləylə bir cüyür balasının anasız, bir kəklik yuvasının kimsəsiz, bir durna qatarının baş-sız...qalacağından narahat olan şair başqa bir şeirində "güllə səsi"nin "dilsiz bir körpənin acı naləsi" nə səbəb olacağını deyir:

Hardasa atılan güllənin səsi
Mənim ürəyimi yaralar, keçər.
Dilsiz bir körpənin acı naləsi
Gecənin qoynunu paralar, keçər.

Görünür, bu ovqata şairin atası Sabir müəllimin (ixtisasca pedaqoqdur) II Dünya mühüribəsi iştirakçısı olması, o illərin ağrı –acılarını, dəhşətlərini yaşaması faktı da sirayət etmişdir. **Haşiyə:** Dərbənd Pedaqoji Texnikumunu fərqlənmə diplomu ilə bitirən Sabir müəllim əmək fəaliyyətinə Dağıstanın dağ kəndi Ağlabıda əsası özü tərəfindən qoyulmuş ilk ibtidai məktəbdə başlayıb. Dövrünün sayılan şəxsiyyətlərindən olmuş, uzun illər müəllim işləyən atası Taib, onu da müəllim görmək istəmişdi.

Müharibə çoxları kimi Sabir müəllimi də sevdiyi peşəsindən bir müddət ayrı salmışdır. Qələbədən sonra doğma yurda qayıdan Sabir müəllim yenidən pedaqoji fəaliyyətə başlamış, Xanoba kənd yeddiillik məktəbində müəllim işləyə-işləyə ali təhsil almışdır.

Onun cəbhə yolu 503-cü alayın tərkibində Kiçik torpaq, Kerç, Krım uğrunda gedən amansız döyüş-

lərdən keçir. Qafqazın müdafiəsində cəbhədən-cəbhəyə atılır. Korenovsk şəhəri ətrafında gedən vuruşlarda yaralanması ilə bir müddət müalicə olunsa da, sağalandan sonra 107 saylı dəniz desantının tərkibində döyüş əməliyyatlarını davam etdirir. 1943 -cü ilin avqust günlərinin birində ikinci dəfə ağır yaralanır. Aderbeyevka kəndində yerləşən hərbi xəstəxanada müalicə olunur. Üç aydan sonra 84 saylı desant diviziysının tərkibində Kerç şəhərinə göndərilir.

1943-cü ilin son günlərində yenidən düşmən gülləsinə tuş gələn gənc döyüşçü alman qəsbkarlarından qisas almaq məqsədilə cəbhənin ön sıralarında döyüşlərə qatılır. Bu dəfəki döyüş yolu I Pribaltika cəbhəsindən başlayır.

Latviya, Litva uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar götərir. Dubel şəhəri yaxınlığında dödüncü dəfə aldığı yaradan da sağ- salamat çıxan iki dəfə "Qırmızı bayraq" ordenli döyüşçü 1945-ci ilin aprelində Leninqrad Piyadalar Məktəbinə təhsil almağa göndərilir. Bir müddət orada qulluq edir, zabit kadrlarının hazırlığında fəal iştirak edir. Sinəsini on dörd orden və medal bəzəyən, tağım komandirliyindən tabor komandirinin müavin-

liyinədək yüksələn, kapitan rütbəli Sabir Taibov 1946 -ci ilin dekabrında ordu sıralarından tərxis olub.

...Uğurlu ideya - bədii həllini tapmış şeirlərdə poetik ümumiləşdirmənin məna tutumu dolğundur. Milli ruhun kifayət qədər möhtəşəm olduğu poetik örnəklərdə bənzərsiz mətndaxili intonasiya lirik bir vüsətlə cilalanır. «Yaşamağa dəyərmi heç» şeirində olduğu tək:

Kimliyimiz çıxıb yaddan,
Od oğlu diksinir oddan.
Namərdlərdir at oynadan,
Yaşamağa dəyərmi heç?

«Od oğlu diksinir oddan» -deyən şair Odlar yurdu Azərbaycanın əsrlərin, qərinələrin o üzündən üzü bəri gələn ruhunun səsinə, «Mənlik» şərəf və qürurunun ucalığına, ülviliyinə tapınır. Başqa bir şeirində isə Vətəninin poetik tərənnümü axar-baxarlı Azərbaycana məhəbbətin bədii ehtivasıdır.

Dilimin müqəddəs sözüdür Vətən!

Eşqimin, sevgimin gözüdür Vətən!
Mənim həyatımın özüdür Vətən!
Mən onun ən kiçik bir zərrəsiyəm.

Öz məzmunu, nəzərə çarpacaq poetik orijinallığı, həyatiliyi ilə seçilən bu şeirlərin aurasında istər-istəməz fikirləşirsən: Əyyub Sabiroğlunun yazdıqlarının demək olar ki, çoxu yaşantılarının bədii sözdə təcəllisidir.

Ə. Sabiroğlunun bədii fikrin alt qatındakı mənadan hasil olan qayədə üzə çıxan həyat və cəmiyyət hadisələrinə şair münasibəti bədii-fəlsəfi leytmotiv kimi çıxış edir. Bu cəhət onun fəlsəfi yüklü şeirləri üçün daha xarakterikdir.

Tüstülənib yanan ağac,
Qalanmağın yaman, ağac !..
Sən yabanı, biz yabanı,
Şər bürüyüb bu dünyanı.

Şairin şeirləri ictimai-fəlsəfi qayəsi ilə yanaşı böyük bədii-estetik dəyəri və yüksək poetik keyfiyyətləri ilə də diqqət çəkir.

Əyyub Sabiroğlunun poeziyasına bələd olduqca, nəhayətsiz xəyallar aləminin toranında dan yeri ağarır, duyğuları şəfəqləndirən sözün üfüqləri fikrin ənginliyində nura boyanır və düşüncələr işığa qərq olur.

**Tapdıq Əlibəyli,**
*şair –publisist,*
*Azərbaycan Yazıçılar Birliyinin,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü,*
*«Qızıl qələm» mükafatı laureatı*



## Analar

***(Anam Oğlangərək Əlisoltan qızının timsalında bütün analara)***

Bir gözü ağlayar,   bir gözü  gülər,
Ürəkdən keçəni  bilər analar.
Ən qəmli vaxtında,  qəmli çagında,
Körpənin üzünə gülər analar.

Dərdini,  qəmini gizli saxlayar,
Oğuldan,  uşaqdan gizli ağlayar...
Ümidin hər zaman Tanrıya bağlar,
Övlada  səadət   dilər analar.

Qurbanam alnının qırışlarına,
Qurbanam nisgilli baxışlarına.
Hər  zaman möhtacıq alqışlarına,
Aləmə nurundan  ələr analar.

*2004*

## Ata yurdum- Xanobam

***(Atam Sabir müəllimə)***

*Şah palıd kölgəsini saldı bulağın gözünə,*
*Sanki «Karvan bulağı» çəkdi niqabın üzünə.*

Bir zaman səs-küylə dolu «Qaraskam»
İndi həsrət qalıb uşaq səsinə.
Möhtəşəm qovaqdan bir kötük qalıb.
Yayda  yığışardıq biz kölgəsinə.

Yenə dar küçələr palçıqla dolu,
Kimsəsiz həyətlər məzarlar kimi.
Yenə də dolanbac gedirəm yolu,
Gecə kəndə girmiş oğrular kimi.

Ayaq səslərinə itlər hürəndə,
Hasardan boylanıb -baxır qocalar.
Sevinirlər tanış bir üz  görəndə,
Quru salama da möhtacdı onlar.

Yenə də «Miskin»də tonqal qalanıb,
Yenə dövrəsində ahıl adamlar.
Qismətdən gen düşüb, bəxti bağlanıb,
Bu kənddə yenə də ölü yeri var...

Şərin qapısını qıran gərəkdir,
Elə bil  bir bədlik bürüyüb kəndi.
Allah da bu kənddən üzün döndərib?
Uçulub-dağılır bərəsi-bəndi.

Bir vaxt dolanardı hamı mehriban,
Ağsaqqal sözünə  hörmət də vardı.
Hamı danışardı kənd bağlarından,
Bərəkət də vardı,  izzət də vardı.

Bir-bir dönür geri,  bir vaxt gedənər,
Kəndin torpağına qarışmaq üçün.
Bəlkə,  bu qayıdış  bir ruh işidir, -
Əzəllə,  əcdadla danışmaq üçün...

Mənim doğma kəndim,  doğma ocağım,
Mənim ata yurdum,  ana qucağım,
Obalar içində sənsən xan obam,
Mənim ülviyyətim,  mənim Xanobam!

Hər gecə girirsən yuxularıma;
«Karvan bulağı»nla,  « Qaraskam»ınla.
Gül-çiçək dərirəm «Həli bağı»ndan,
«Qışlaq dərəsi»ndən,  «Qasım bağı»ndan.

Anam:keçdi,  -deyə,  -naxır «Tala»dan,
Başıma sığalla oyadır məni.
Nurlu çöhrəsində xəfif təbəssüm:
Atam: tənbəl,-deyə,  cırnadır məni.

İndi yasaq olub doğma meşələr,
«Balax bulağı»na yollar bağlanıb.
Daha güney,  qüzey bölünmüşük  biz,
Dillər qıfıllıdır,  qollar bağlanıb...

*20.10.1992*

**Bənövşə**

Yoldan ötənləri salamlayır,  bax,
Boynunu bükərək yenə bənövşə.
Görəsən,  halıma nə vaxt yanacaq,
Bir nəzər salacaq mənə bənövşə?

Büllur şeh damlası yanağındadır,
Bir şeyda bülbülün sorağındadır.
«Söyüdlü çeşmə» nin qırağındadır,
Düşüb səhər- səhər çənə bənövşə.

Əlimi uzatdım,   onu qoparam,
Görüşə gedəndə yarçün aparam,
Mənə qəmli- qəmli baxdı bu zaman,
Az qaldı danışa,  dinə bənövşə.

Əllərim titrədi,  ürəyim əsdi,
Özüm də bilmədim bu nə həvəsdi.
Sirli baxışınmı qarşımı kəsdi,
Ya könlüm qıymadı sənə,  bənövşə?

Əyyubam,  gözəllik aşiqiyəm mən,
Könlüm ilham alar güldən- çiçəkdən.
O gün ki vuruldum sənə ürəkdən,
Doludur söz ilə sinə,  bənövşə.

*1979*

## Yada sal məni

Sevgilim, keçərkən göy çəmənlikdən,
Bir an ayaq saxla, yada sal məni.
Bilirsən, gözəllik aşiqiyəm mən,
Güldən dəstə bağla, yada sal məni.

«Karvan bulağı»na su dalınca gəl,
Günəş üfüqlərdən boylanınca gəl,
Bülbüllər yuxudan oyanınca gəl,
Bəhsə gir bulaqla, yada sal məni.

Hərdən yolunu sal «Qışlağa» sarı,
Gəzdiyim yerləri gəz, dolan barı.
Mənsiz yetim qalmış dar cığırları
Mənim tək ayaqla, yada sal məni.

Bəlkə, vaxtsız ölüm, amansız əcəl,
Bir səhər ömrümə uzadacaq əl,
Əyyubam, gəl barı, köç zamanı gəl,
Qəbrim üstə ağla, yada sal məni.

*30.07.1978*

## Bir qız ağlayırdı,  nənə yaşında

Bir gənc öz əhdinə çıxdı vəfasız,
Uzaq bir diyarda ailə qurdu.
Yolunu həsrətlə gözlədi bir qız,
Ömrünü təkliklə üz-üzə durdu.

Qürbətdən bir tabut gəldi Vətənə...
O gəncin adıydı məzar daşında.
Sərib tər çiçəklər qəbri üstünə,
Bir qız ağlayırdı... nənə yaşında.

## Ayrılıq

Qəlbimə od salıb getdi o dilbər,
Dalınca həsrətlə baxdı gözlərim.
Dəyişdi yerini bir-bir fəsillər,
Ürəyimdə qaldı ürək sözlərim.

İçdim ayrılığın qəm şərbətini,
Alışdım hicranın oduna şam tək.
Yandırır bu atəş, bu həsrət məni,
Qismətin hökmüdür, dözəsən gərək !

*17.08.1974*

## Xatirələr aynasında

Ensiz bir cığırda xatirə dolu,
Ayaq izlərimi axtarıram mən.
Bir vaxt qayğısızca getdiyim yolu,
Ürək yanğısıyla indi gedirəm.

Yenə həzin-həzin oxuyur bülbül,
Görünür, halına yoxdur yananı.
Meşə də xəyala dalıb elə bil,
Başını alıbdır həsrət dumanı.

«Məlixan meşəsi» bilmirəm nədən
Pərişan görünür gözümə bu gün?!
Bəlkə, çoxdan bura gəlmədiyimdən
Qonmuş yarpağına kədər söyüdün?

«İllərdən hörülmüş hasar» dalından
Şirin xatirələr boylanıb baxır...
«Balax bulağı» ndan su içən zaman
Sanki xatirədir, könlümə axır.

Uşaqlıq çağlarım şirin yuxu tək,
Şirin bir xəyal tək görünür indi.
Bir vaxt qayğısızca döyünən ürək,
Gəncliyin eşqiylə döyünür indi.

## Xəstəxanada

*(Ömür-gün yoldaşıma)*

Ayrıldıq,  kövrəldin körpə uşaq tək,
Göz yaşın süzülüb axdı üzündən.
Sıxıldım,  dözmədi sinəmdə  ürək,
Öpdüm yanağından,  öpdüm gözündən.

Zərif əllərində sıxıb əlimi,
Hönkürdün,  elə bil son görüşdü bu...
Sənə bağlamışam öz taleyimi,
Üşüdür qəlbimi hicran qorxusu.

Biz hələ doyunca sevinməmişik,
Kam da almamışıq həyatdan hələ.
Hələ görməmişik oğul toyunu,
Rəqs də etməmişik verib əl-ələ.

Kədər yaman yerdə haqladı məni,
Gözünün içinə baxa bilmirəm...
Mən  sənə deyərdim min bir dərdimi,
Bu dərdi,  bu dərdi deyə bilmirəm.

Qarşında durmuşam günahkar kimi,
Dilim quruyubdur, dilim lal olub.
Lap kövrək olmuşam uşaqlar kimi,
Əvvəlki sevincim bir xəyal olub.

Bu dilsiz yollara dikib gözümü,
Yolunu gözlərəm hər səhər, axşam.
Məndədir Əyyubun səbri, dözümü,
Müqəddəs bir eşqə arxalanmışam

Bilirəm, bir səhər şirin gülüşün,
Yenə evimizə yayılar sənin.
Ömrümdə bayrama dönəcək o gün,
Üzdükcə qoynunda ilk məhəbbətin.

*1994*

## Röya

Nə şirin yuxuydu, nə şirin xəyal,
Nə yaxşı taleyin bu qisməti var.
Həyatda olsam da qarşısında lal,
Röyada onunla idim bəxtiyar.

Qol-boyun olmuşduq sarmaşıq kimi,
Suya təşnə kimi dodaq - dodağa.
Gizlin saxladığım məhəbbətimi,
Röyada açmışdım o ay qabağa.

Yalnız ikimizdik o göy çəməndə,
Tamam unutmuşduq kədəri, qəmi.
Səadət salmışdı bizi kəməndə,
Necə də şirindir bu vüsal dəmi.

Həsrətin çəkdiyim o zərif əllər,
O lalə yanaqlar mənimki idi.
O gözlər, o qaşlar, pərişan tellər,
O qönçə dodaqlar mənimki idi.

Mən idim dünyanın ən xöşbəxti mən,
Bilmədim nə zaman açıldı səhər.
Röyada bir vüsal yaşadım dünən,
Elə bir vüsal ki, bir ömrə dəyər!

*16.06.1988*

## Sevgilim

Bir könlüm var-kədər dolu,  qəm dolu,
Onu da çəkmisən dara,  sevgilim.
Arabir küsürsən heç  nəyin üstə,
Vurursan sinəmə yara,  sevgilim.

Günah axtarırsan hər bir sözümdə,
Günah axtarırsan özün-özündə.
Sən ki günahsızsan mənim gözümdə,
İnan səni sevən yara,  sevgilim.

Deyirlər taleyin öz yazısı var,
Onun hökmüylə də insan yaşayar.
Nə sən günahkarsan,  nə mən günahkar,
Qoyma könlüm sinə yara,  sevgilim.

*02.11.1993*

## Hardan biləydim

Səndən uzaqlarda olduğum zaman
Sənsiz alışardım,  sənsiz yanardım.
Gecələr sübhəcən səndən xəbərsiz
Səni düşünərdim,  səni anardım.

Yaxşı yadımdadır: iki il qabaq
Son dəfə görüşdük bulaq başında.
Palıd üstümüzə kölgə salaraq
Şahid dayanmışdı qoca yaşında.

Yadından çıxdımı o yaz gecəsi-
Ulduzlar min ahəng vurmuşdu göyə.
Ağlar gözlərini zilləyib mənə,
Boynuma sarıldın, sevirəm,  -deyə.

Mən hardan biləydim o göz yaşları,
O sözlər,  vədələr yalan olacaq?
Mən hardan biləydim,  eşqimin barı
Ürək  ağrısıyla hicran olacaq?

Heyf o illərdən, sinəmdə ürək
Səninçün döyündü, səninçün vurdu.
Heyf o günlərdən, keçdi səninlə,
Adımız hər yerdə yanaşı durdu.

Günahkar özüməm, mən özüm yalnız,
Tanıya bilmədim vaxtında səni.
Odur ki, qalmışam meydanda yalqız,
Özüm tək çəkirəm dərdi-qüssəni.

*1979*

## Qayıt

Xətrinə dəymişəm, bağışla məni,
Bu sınıq könlümün xatirinə sən.
Kiminlə bölüm mən dərdi-qüssəni,
Sən də bir sözümdən inciyib getsən.

İtirmək asandır dostu, yoldaşı,
İblisin evləri yıxdığı qədər.
Qayıt, paralanır bağrımın başı,
Qayıt, üzdü məni bu qəm, bu kədər.

## Sevgilim

Niyə ürəyimi atıb odlara,
Yaramın  üstündən vurursan yara?
Mən səndən umurdum könlümə çarə;
Məndən uzaqlara qaçan sevgilim,
Sirrimi özgəyə açan sevgilim.

Əğyara yar oldun,  unutdun məni,
Eşqə dönük çıxdın,  sevdin özgəni.
Könlümün məlhəmi,  eşqimin şəmi-
Məhəbbət bağımdan uçan sevgilim,
Sirrini özgəyə açan sevgilim.

*24.07.1977*

## Tələbə həyatım

Mən fəhləyəm,  qabarlıdır əllərim!
Bir –birindən şərəflidir günlərim!
Zəhmətkeş insanlar sırasındayam,
Qurub – yaradanlar arasındaym!

Gecələr yuxusuz qalsam da bəzən,
Şikayət etmirəm öz taleyimdən.
Gündüzlər fəhləyəm-əli qabarlı,
Axşamlar tələbə -ömrü baharlı.

*1977*

## Yaşamağa dəyərmi heç

Çıxan əziz canımdısa,
Axan qızıl qanımdısa,
Düşmən dostdan  yaxındısa,
Yaşamağa dəyərmi heç?

Gəncliyin bağlanıb baxtı,
Çəkdiyi nalədi, ahdı.
Gələcək qara sabahdı...
Yaşamağa dəyərmi heç?

Kimliyimiz çıxıb yaddan,
Od oğlu diksinir oddan.
Namərdlərdir at oynadan,
Yaşamağa dəyərmi heç?

Namus,  qeyrət,  ar da getdi,
Ala gözlü yar da getdi,
Vətən adlı var da getdi,
Yaşamağa dəyərmi heç?
Yaşamağa dəyərmi heç?

*1990*

## Sən getdin

Ey mənim ömrümə nur saçan  çıraq,
Sən getdin köksümü parçalayaraq.

Sən getdin -gözümün işığı söndü,
Sən getdin –ürəyim yetimə döndü.

Sən getdin-can evim qaldı viranə,
Sən getdin –mən qaldım tənha,  divanə.

Sən getdin-zülmətə büründü cahan,
Sən getdin-üşütdü məni bu hicran.

Bədənim buz kimi,  nəfəsim də buz,
Ey ömür yolumda parlayan  ulduz.

Sən elə uzaqsan,  yetməyir əlim,
Elə uzaqsan ki,  dilbər gözəlim...

Mənim harayım da yetməyir  sənə,
Nə deyim taleyin bu qismətinə?

Dərdliyəm,  dərdimi bilənim yoxdur,
Gözümün  yaşını silənim yoxdur.

Qalıb ürəyimdə arzum,  muradım,
Göyləri titrədir acı fəryadım.

Fəqət  təkcə sənə çatmır harayım,
De,  hansı məkanada səni arayım?

Ey mənim ömrümə nur saçan çıraq,
Sən getdin köksümü parçalayaraq!..

*30.06.1988*

**Yaman xətrimə dəymisən**

Hər nazına dözən mənəm,
Saçına gül düzən mənəm,
Havalı tək gəzən mənəm,
Sən mənim qəddim əymisən,
Yaman xətrimə dəymisən.

Aşiq oldum incə belə,
Gətiribdir həsrət dilə:
Ay insafsız, gülə-gülə
Sən mənim qəddim əymisən,
Yaman xətrimə dəymisən.

Bənzərin var qönçə gülə,
Qoyma əğyar mənə gülə.
Atəşində döndüm külə...
Sən mənim qəddim əymisən,
Yaman xətrimə dəymisən.

Könül dözməz bu hicrana,
Sənsiz ömür bir viranə.
Əyyub deyər yana-yana:
Sən mənim qəddim əymisən,
Yaman xətrimə dəymisən.
Yaman xətrimə dəymisən.

*18.08.2005*

## Ay ürək

Köklənmiş tar kimi nalə çəkərək,
Nə fəğan edirsən yenə, ay ürək?
Yarası sağalmaz ilk məhəbbətin,
Qismətin hökmünə dözəsən gərək.

Hələ nə görmüşəm, incidib məni,
Qoymursan yatmağa bütün gecəni?
Poladdan möhkəmsən, şüşədən kövrək,
De kimlər sındırıb səni, ay ürək?

Yorğun yolçular tək hərdən «durursan»,
Təlaşla döyünür, titrək vurursan.
Od tutub alovlan, yan məşəl kimi,
Həyat gələcəyə səsləyir məni.

Mənim gələcəyə səyahətim var!
Ömrümdə gülməmiş hələ ilk bahar.
Niyə ağrıyırsan, niyə, ay ürək?
Niyə ağlayırsan, niyə, ay ürək?!

*05.10.1978*

## Ürəyinə dəyən söz

Kaş ki sənin ürəyinə dəyən söz,
Bir ox olub ürəyimə dəyəydi.
Çatılaydı sinəm üstə ocaq...köz.
Ürəksizlik düz qəddimi əyəydi.

Yollarımı duman-çiskin alaydı,
Göz yaşımla quru çaylar dolaydı,
Sənsizlikdən çöhrəm tamam solaydı,
Görənlər adıma  Məcnun deyəydi...

*17.01.1997*

## Ayrılıq

Qəlbimə od salıb getdi o dilbər,
Dalınca həsrətlə baxdı gözlərim.
Dəyişdi yerini bir-bir fəsillər,
Ürəyimdə qaldı ürək sözlərim.

İçdim ayrılığın qəm şərbətini,
Alışdım  hicranın oduna şam tək.
Yandırır bu atəş,  bu həsrət  məni,
Qismətin hökmüdür,  dözəsən gərək.

*17.08.1974*



**Sənsizlik**

Artıq neçə ildir görmürəm səni,
Ayrılıq ay aman, yaman olurmuş.
Həsrətin yandırır kövrək qəlbimi,
Ayrılıq yandırıb-yaxan olurmuş.

Nələr çəkməmişdir bu illər başım?
Xəyallar olubdu könül sirdaşım.
Dilim qabar olub, necə danışım?
Ayrılıq qəm-qüssə, fəğan olurmuş.

Sənsizlik köksümdə açdı yaralar,
Sənsizlik başıma qar yağdırdı, qar.
Qayıdıb gəldi də köçən durnalar...
Ayrılıq amansız hicran olurmuş.

Gəl eylə yaralı könlümə dərman,
Bu hicran əlindən qurtar, ey canan.
Döndərmə üzünü Əyyub Tənhadan,
Ayrılıq vaxtsız can alan olurmuş.

*08.06.1974*

## Düşüb

Ağlar könül, ağlar qələm, ağlar göz,
Əyyub Tənha yorğan -döşəyə düşüb.
Xəstə yatır, demək istər neçə söz...
Gözü bir ala göz mələyə düşüb.

Artıq neçə aydır yoldadır gözü,
Elə hey yardandır söhbəti-sözü.
Ağlayır yar üçün yazığın özü,
Sanki bir bülbüldür, çələyə düşüb.

Ürəyi yaratmaq eşqiylə coşur,
Sevdiyi dilbərə nəğmələr qoşur,
Ötən durnalardan yarı soruşur...
Vəfasız əlindən bəlaya düşüb.

Sınaqda dostu da düşmənə döndü,
Iblis də sevindi, xoşhal göründü.
Müqəddəs bir eşqın çırağı söndü,
Sonuncu gümanı fələyə düşüb.

*14.03. 1972*

## QƏZƏLLƏR

Dedilər : sevgili-canan gələcəkdir bu gecə,
Könlümü eyləyən heyran gələcəkdir bu gecə.

Neçə ildir çəkirəm mən o gülün həsrətini,
Axır ki zülfi-pərişan gələcəkdir bu gecə.

Dönəcək can otağım bağı-gülüstana mənim,
Canıma yenidən bir can gələcəkdir bu gecə.

O təbib, xəstəsi mən, dərman onun busəsidir,
Dərdimə, ey Əyyub, dərman gələcəkdir bu gecə.

*1979*

Bu sınıq könlümü gəl,  bir də pərişan eyləmə,
Çox bəlalar çəkmişəm, bəsdir nahaq  qan eyləmə.

Bu eşq yolunda məni çox imtahana çəkmisən,
Hər cəfaya dözmüşəm,  bir də imtahan eyləmə.

Bir canım vardı,  onu yolunda qurban  etmişəm,
Quruca  cismim qalıb,  onu da şan-şan eyləmə.

Uyma əğyarə,  onun saxtaca gülüşləri var,
Bu geniş dünyanı gəl, könlümə zindan eyləmə.

Əyyubam, eşq əhliyəm-düz ilqarım, düz əhdim var,
Bu sevda yolçusuna başqa yol güman eyləmə.

*25.10. 1985*

Vurdun ürəyim başına yüz yarə,  sevgilim,
Eylər bu dəli könlümə kim çarə,  sevgilim?

Baxma elə naz ilə,  məni etmə pərişan,
Etməz bu qədər zülmü ki,  yar yarə,  sevgilim.

Əydi məni eşq atəşi,  qəddim kaman oldu,
Oldum sənin eşqinlə bir avarə, sevgilim.

*17.01.1981*

Çıxar yarıyla görüşə neçə ceyran gecələr,
Eyləyər bunca məni hüsnünə heyran gecələr.

Gəzişir qəmli-qəmli dərdli bir aşiq küçədə,
Onun da ruhunu eyləmiş pərişan gecələr.

Sevdiyi dilbəri rahatcə yatağında yatar,
O isə sübhə kimi gəzər bağrı qan gecələr.

Ay çıxıb, nur ələyir, şairanə bir gecədir,
Nə gözəl olur aləm, ay çıxan zaman gecələr.

Şırhaşır laylay çalır ətrafa «Karvan bulağı»,
Şah palıd kölgəsi həsrət sənə, ey can, gecələr.

Seyrə çıx, ey Əyyub, sən hər axşam bulaq başına,
Görəcəksən neçə ulduz olur pünhan gecələr.

*15.08.1978*

Əyyubun öz yarı var, özgə bir canan istəməz,
Canını vermiş ona, özgələrdən can istəməz.

Əzəldən yar bağının vurğunu olmuş ürəyi,
Varsa da, ondan da barlı bir gülüstan istəməz.

Yatmayıb çox gecələr, o çəkdi yar həsrətini,
Gördü hicran dadını, bir daha hicran istəməz.

Yanına yüz cürə dərman ilə gəlmə, ey təbib,
Dərmanı bir busədir, o ayrı dərman istəməz.

*1979*

Gəzmə məndən aralı,  nazlı nigarım sənsən.
Mən bir şeyda bülbüləm,  güllü baharım sənsən.

İçirtdin sən öz əlinlə mənə eşqin camını,
Tək səni istər könül,   dövlətim –varım sənsən.

Vermə əğyarə könül,  aşiqi rüsvay etmə,
Bütün aləmdə bilirlər,  mənim yarım sənsən.

Üzünü yana  çevirmə  görəndə,   Əyyubam,
Qoca dünyada mənim səbri -qərarım sənsən.

*1979*

Mən tək çəkə bilməz,  gözəlim, nazını heç kəs,
Heç kəs poza bilməz yazılan yazını,  heç kəs.

Bil,  Tanrı yazıb alnımıza qisməti,  ömrü,
Heç vaxt bilə bilməz  çoxunu,  azını heç kəs.

Sənsən qoca dünyada mənim qisməti-yarım,
Təkrar edəməz səsini,  avazını heç kəs.

Yetməzmi,  gülüm,  bunca məni imtahan etdin?
Sən tək xəzan etməz baharın,  yazını heç kəs.

*07.10.2005*

Xəstəyəm, yetir özün, sevgili canan, ölürəm.
Ayrılıq eyləyibdir könlümü al-qan, ölürəm.

Zamanın hökmü ilə qonaq oldum yad ellərə,
Könlümü şam eyləyib yandırır hicran, ölürəm!

Neçə namə yazmışam elimizə, cavabı yox,
Hər günüm il kimidir, göz yaşım neysan, ölürəm!

Getmir xəyalımdan qoşa gəzdiyimiz xoş günlər,
Könlümün yarasına gəl eylə dərman, ölürəm!

Yuxuda mən bu gecə gördüm sənin gül üzünü,
Gözümü açdığıma oldum peşman, ölürəm.

Əyyubam, Vətənimdə ölmək xoşdur mənə, ey yar,
Qoyma yadlar içində yarın versin can, ölürəm!

*10.08.1975*

## ADSIZ ŞEİRLƏR

Nazlana- nazlana suya gedəndə,
Bir bizim tərəfə nəzər sal,  gözəl.
Dərdindən dəliyəm,  xeyli zamandır,
Halımı bacımdan xəbər al,  gözəl.

*1979*

Canımda saxlayıb kədəri, qəmi,
Gəzirəm nə vaxtdır sərsəri kimi.
Könlümün əvvəlki odu səngimiş,
İlahi,  nə üçün taleyim dönmüş?

*1989*

Bir nazlı sənəmin eşqiylə yandın,
Ona könül verdin,  ona inandın.
Özünü xoşbəxtlər xoşbəxti sandın,
İndi niyə belə qəmlisən,  Əyyub?

Qaldı ürəyimdə arzum, muradım,
Göyləri titrətdi acı fəryadım.
Gözəllik aşiqi Əyyubdur adım,
Yara xəbər verin, gəlsin, ölürəm.

Getdim görüşünə bir axşamçağı,
Sübhədək gözlədim, o yar gəlmədi.
Xəzan viran qoydu bağçanı-bağı,
Həsrətin çəkdiyim bahar gəlmədi.

*1979*

Dilimin müqəddəs sözüdür Vətən!
Eşqimin, sevgimin gözüdür Vətən!
Mənim həyatımın özüdür Vətən!
Mən onun ən kiçik bir zərrəsiyəm.

*1979*

Quduz bir vəhşi tək ulayır külək,
Göstərmək istəyir sanki gücünü.
Kimi ləzzət alır şuba geyərək,
Kimi tək pencəkdə soyuq qış günü.

Mənə unut dedi.-Necə unudum,
Dilsiz  ürəyimə hakim olanı?
Mənə unut dedi.-Necə unudum,
Könlümə əvəzsiz  həkim olanı?

Çox-çox uzaqlarda öz Vətənindən
Şair nəğmə yazar-Vətən nəğməsi.
Uzaq bir diyarda   duyar dərindən,
Hansı qüdrətdədir  Vətən kəlməsi

*31.07.1975*

Bir ah çəkdim,  göyün üzü qaraldı,
Yollara baxmaqdan gözüm saraldı.
Hicran yanğısını  belə bilməzdim,
Sənsiz ürəyimi qəm-kədər aldı.

Bu dünya nə yaman fırlanır belə,
Bir yerdən yapışıb dayanmaq olmur.
Bu ürək nə yaman çırpınır belə,
Sevgi röyasından oyanmaq olmur...

*06.07.2006*

Gördüm bu dünyanın hər sifətini,
Əllini aşırdım, yüzə xeyli var...
Belə keşməkeşli, sərsəm dünyada
Görəsən, kimlərin yüzə meyli var?

*2006*

Gecə -gündüz qayalara çarpılan
Damcı-damcı səpələnən mənəm, mən.
Dalğa-dalğa sahillərə can atan,
Həzin -həzin ləpələnən mənəm, mən.

*05.02.2002*

Yaman qaçhaqaçdır ruzi dalınca,
Ömür necə keçdi, bəndə nə bilsin?
Bir tikə çörəyə əli çatınca,
Bəndə nələr çəkir, kündə nə bilsin?

Yaman uzun çəkdi, yaman bu gecə,
Qəhər boğur məni, ağlayım necə?
Göz yaşım içimdən -içimə axır.
Məni haqsızlıqlar yandırıb-yaxır.

Tüstülənib yanan ağac,
Qalanmağın yaman, ağac !..
Sən yabanı, biz yabanı,
Şər bürüyüb bu dünyanı,
Şər bürüyüb bu dünyanı.

Yanımdan ötürsən səssiz-səmirsiz,
Ötəri bir nəzər salmadan belə.
Elə bil heç tanış deyilmişik biz,
Üzümə baxırsan yad adam kimi,
Adi salamımı almadan belə...
Ötəri bir nəzər salmadan belə...

Ey könül, çox uyma al yanaqlara,
Mərmər sinələrə, bal dodaqlara.
Çoxdur qələm qaşlı, nazlı gözəllər,
Xeyirdən daha çox görərsən zərər!

Sevin, ay ellər çiçəyi!
Dərməyiniz tər çiçəyi.
Qoruyunuz hər çiçəyi, -
Baharın bir zərrəsidir.

Hərdən dəniz kimi qəzəblə çuğlarsan,
Hərdən səssiz-səssiz,
Qəmli –qəmli ağlarsan...
Hərdən həyatdan küsərsən,
Ümidsiz-ümidsiz  vurarsan,
Dəli könül,  dəli könül!

Müdhiş fikirlərin məngənəsində
Ürək sızıldayır,  ürək can verir.
Sanki cəhənnəmin qapısandayam,
 Ruh bədəndən ayrı,  imtahan verir.

Məni dalgaların qoynuna atın,
Xəzərlə birlikdə kükrəyim,  coşum.
Qağayıya dönmüş dənizçilərə
Dənizin dilində nəğmələr qoşum...

*2004*

Aşıq qardaş,  bir «Kərəmi» çalginən,
Ürəklərdə incə tellər oynasın.
Bülbül naləsini unutsun bir  an,
Qönçə dəhanlarda dillər oynasın.

Əyyubam, hər sözüm incidi, dürdü,
Göz yaşım Arazdı, Xəzərdi, Kürdü,
Bu qəmli günlər də elə ömürdü,
Yaşayaq birtəhər, dözək birtəhər.

*1990*

Bir məkana düşdü yolum ;
Nadanlardır sağım-solum.
Allah, sənə qurban olum,
İşləyən yox, hamı bəymiş.

*1992*

Mənim gözlərimi qapayan zaman,
Səni sevdiyimi anlayacaqsan...
Vaxtında qədrimi bilmədiyinçün,
Özün hey özünü danlaycaqsan.
Səni sevdiyimi anlayacaqsan,
Səni sevdiyimi anlayacaqsan...

Qara geydim, qara düşdüm,
Çətinliyə, dara düşdüm,
Heç bilmədim hara düşdüm...
Gözlərim bağlıydı, Allah!

## RÜBAİLƏR

Böyük xəzinəyə sahib də olsan,
Ey insan, bil sənə qalmaz bu dövran.
Torpaq ayırd etməz kasıb-varlını,
Axirət evinə köç edən zaman.

*29.12.1972*

Oldun çox dərdlərə mübtəla, könül,
Çəkdin yar əlindən min bəla, könül.
Əzəldən qismətin oldu qəm-kədər,
Gör səni saldılar nə hala, könül.

*1980*

Anadan istedad doğulmur hər kəs,
Zəhməti sevməyən yüksələ bilməz.
Puç olub gedəcək istedad zaya,
Ona qatılmasa əməkdən maya.

Şair, sən əlinə alanda qələm,
Düşünür, deyirsən: bəhs edim nədən?
Movzu axtarırsan səhərə qədər...
Məncə, ən müqəddəs mövzudur Vətən!
*14.03.1975*

Dünyanın varına salaraq meyl,
Yığırsan o ki var, köçdü elə bil.
Dünyada qalacaq dünyanın varı,
Heç canda o can da səninki deyil.

Bu gecə yarımı gördüm röyada,
Gördüm ki, o məni salıbdır yada,
Götdüm ki, tutmuşam onun əlindən,
Söylədim: xoşbəxt yox mən tək, dünyada.
30.06. 1973

Yenə də eyvanda durmuşam yalqız,
Özünü yağışla göstərir payız.
Ürək doğma elçün yaman darıxır, -
Hələ də yoldadır yazdığım kağız...

Yenə də naz ilə baxırsan,  ey gül,
Könlümü odlara yaxırsan, ey gül,
Özümü özünün əsiri etdin,
Bu naz-qəmzən ilə axır  sən,  ey gül!

1979

Açıb əllərini uca göylərə,
İmdad diləyirsən gündə min kərə;
Yaxşısı budur ki,  eyləmə günah,
Vaxtın da getməsin hədər,  boş yerə.



## Könül istəyi

Hələ açılmamış sabahın gözü,
Gəlib pəncərənə daş atasıyam.
Dönərək səhərin xəfif mehinə,
Şirin yuxulardan oyadasıyam.

Könül çələngimin əvəzinə mən
Gül də göndərərəm dəstəbədəstə.
Pəncərən önündə gecə sübhəcən,
Nəğmə oxuyaram pəsdən, ahəstə...

*21.06.2006*

## Yeni il

Yenə ömrümüzə güldü yeni il!
Yaşımız üstünə bir il də gəldi.
Əziz dost, gül, oyna, qəm yeri deyil,
Çox da ki, ömrümüz bir il gödəldi.

İllər gəlib -keçər, dolarıq yaşa.
Bir də görəcəksən ömrün qışıdır.
Qəmdən uzaq dolan, firəvan yaşa,
Həyat həm sevincdir, həm göz yaşıdır.

*01.01.1979*

## Bahar

Bir azdan kürkünün ətəklərini
Dağların başına qış çəkəcəkdir.
Ilin bahar adlı gözəl gəlini
Yeri nəfəsiylə isidəcəkdir.

Yenidən bozumtul dağ yamacları
Öz yaşıl donuna bürünəcəkdir.
Dağların döşüylə zirvəyə sarı
Bulud karvanları sürünəcəkdir.

Özgə don geyəcək bütün kainat,
Hər şey gözümüzdə gözəlləşəcək.
Nəğməyə dönəcək büsbütün həyat
Yaşmaq eşqimiz tüğyan edəcək.

## Keçdimi

Samur çayı, səndən sual eylərəm:
Bu körpüdən dağlar qızı keçdimi?
Qara gözlü, qara zəncir hörüklü
Dağıstanın ağlar qızı keçdimi?

Uşaqlıqdan mən o gülü sevmişəm,
Öz dərdimə onu dərman bilmişəm,
Bu yerlərə yarı deyib gəlmişəm,
Söylə, burdan dağlar qızı keçdimi?

1979

## İlk nəğmə

Günlərin bir günü nalə çəkərək,
Sevirəm söyləyib inlədi ürək.
Özüm də bilmədən bir nazlı sənəm
Qayğısız  könlümə bağışladı qəm.

O nazlı sənəmin baxışlarıyla
Eşqin hədəfinə dönəndə sinəm,
İnləyən könlümün göz yaşlarıyla
Yazmağa başladım ilk nəğməmi mən.

*1980*



## Məni

Qəlbi qırıq bir aşiqəm,
Düz qəddimi əyibdi qəm.
Niyə seçib görən həmdəm
Qüssə məni, kədər məni?..

İllər gəlib ötüşəcək,
Saçlarıma dən düşəcək,
Ömrüm boyu üşüdəcək
Hicran məni, qəhər məni.

*1994*



## Olar

Ürəyimi çəkib dara,
Getmə məndən uzaqlara.
Ahım dönər buludlara,
Göz yaşlarım neysan olar.

Sən mənim nazlı yarımsan,
Gül üzlüm, vəfadarımsan,
Bu dünyada qərarımsan,
Sənsiz ömrüm tufan olar.

*1994*



## Səni sevən bir ürək var

Aylı, nurlu gecələrdə ulduzlara
baxıb hərdən,
Köks ötürmə sən dərindən.
Ağırdısa xatırlamaq,
xatırlama məni, gülüm,
xatırlama məni, gülüm.
Amma birdən çətinliyə, dara düşsən,
səslə məni.
Mənim nazlı qızılgülüm,
səslə məni!
Mən yetərəm harayına harda olsam,
Özüm belə darda olsam.
Bil, hardasa səni sevən bir ürək var,
Sənə səadət arzular,
Sənə səadət arzular.

*16.07.1988*

## İlk məhəbbətim

Könlümdə lövbər salan,
Dalğalarla çarpışan,
Yelkənsiz bir gəmidir-
Mənim ilk məhəbbətim.

Sevdasına çatmayan,
Sübhə kimi yatmayan,
Bir aşiqin  qəmidir-
Mənim ilk məhəbbətim.

Qanadları qırılmış,
Qəfəslərə salınmış,
Bülbülün naləsidir –
Mənim ilk məhəbbətim.

Muğam səslənən zaman,
Həzin-həzin ağlayan,
Qırılmış tar simidir-
Mənim ilk məhəbbətim.

Nəbzim ilə bir vuran,
Ürək döyüntüm olan,
Həyatımın himnidir-
Mənim ilk məhəbbətim.

*05.03.1978*

## Vəfasıza

*Sən mənim qədrimi biləsən deyə,*
*Bu cavan yaşımda ölümmü indi?*
***Əli Kərim***

***(Bir əsgərin dilindən)***

Mənə söz vermişdin, dilin qurusun!
Nədir barmağında nişan üzüyü?
Görüm üzük taxan əlin qurusun!
Nədir barmğında nişan üzüyü?

Bəlkə, istəyirdin kölgə kimi mən,
Dalınca sürünüm, qulunam-deyə?
Bəlkə, istəyirdin gecə sübhəcən
Mənim ahu-naləm ucalsın göyə?

Bəlkə, düşünürdün sən ey vəfasız,
Qul kimi alçaılır aşiq olanlar?
Nifrət! Sənə nifrət! Yalnız və yalnız –
Nifrətə layiqdir əhdi dananlar.

*1997*

## Qələmim

Əyyubam, Əyyub tək dözümüm vardır,
Qəm-qüssə qəddimi əyəmməz mənim!
Gül, cavan qələmim, hələ bahardır.
Qoy qəmli görməsin məni düşmənim.
Qəm-qüssə qəddimi əyəmməz mənim!

Ayaq izlərinə həsrət zirvələr,
Yolumu həsrətlə gözləyir mənim.
Bizə yoldaş deyil bu yolda kədər,
Ağlama, ağlama, cavan qələmim,
Qoy qəmli görməsin məni düşmənim.
Qəm-qüssə qəddimi əyəmməz mənim!

*1980*

## Hardasa

Hardasa yenə də toplar atılır,
Hardasa körpələr yuxusuz qalır.
Hardasa bir cocuq tir-tir əsərək,
Yadalra əl açır: çörək- deyərək.

Hardasa bir ana əlləri göyə
Allaha yalvarır:- Kömək ol...deyə.
Hardasa bir gəlin öz körpəsiylə
Şəhidlər içində ağlar səsiylə,
Ömür yoldaşını gəzir, axtarır...
Öpərək oğlunun solğun üzündən,
Hardasa bir ana şivən qoparır.

Hardasa atılan güllənin səsi
Mənim ürəyimi yaralar keçər.
Dilsiz bir körpənin acı naləsi
Gecənin qoynunu paralar keçər.

Bəsdir! İnsan oğlu, saxla əlini,
Anamız Yer sülhə səsləyir səni!
Bəsdir! Su yerinə axdı qızıl qan,
Bəsdir, qənim oldu İnsana insan.

*1980*

## Qanlı 20 Yanvar

Yenə cingildədi qanlı qədəhlər,
Verdilər kiminsə «fatihəsini».
Döndü qan gölünə böyük bir şəhər,
Dünya eşitmədi fəryad səsini...

Bir səmum yeliydi, əsdi şimaldan,
Dənizdən şəhərə süründü duman.
Gəzdi küçə-küçə, dalanbadalan,
İzlədi Bakını ölüm anbaan.

Azadlıq meydanı önündə şərin...
Nalə səslərindən tüklər ürpəşir.
Şəhid qanı hopmuş qərənfillərin
Bağrını sanki ah güllə tək deşir...

*1990*

## Güllə səsi

Meşədə bir güllə səsi eşitdim, -
Bir cüyür balası anasız qaldı.
Meşədə bir güllə səsi eşitdim, -
Bir kəklik yuvası kimsəsiz qaldı.

Bir güllə açıldı: bir ana dövşan
Bir də yuvasına qayıtmayacaq.
Turac balaları öldü acından...
Bir durna qatarı başsız qalacaq.

Amandır, uçub get, yaşılbaş sona!
Qoy qana batmasın ağ mərmər sinən.
Uç get, zalım ovçu rəhm etməz sənə.
Qurban gedəcəksən bir gülləsinə.

*15.02.1978*

## Eşqimin pərvanəsiyəm

Mən  bu eşqdən yorulmadım,
Qismətimdi.
Tanrı mənə qanad verdi,
pərvazlandım,
Mən bu eşqin dövrəsində  pərvanə tək.
Bir az qorxdum alışmaqdan,
amma alışdım yanmağa.
Doymadım bu sevdadan.
Doymadım odlu baxışlardan,
odlu öpüşlərdən...

## Ey könül

Ey könül,  nə üçün belə qəmlisən,
Niyə yaşamaqdan doydum deyirsən?
Sən ki bilməz idin nə qəm,  nə kədər,
Özünə əziyyət vermə bu qədər.
Əzəldən vəfasız olub  bu dünya,
Niyə  yalvarırsan o bivəfaya?
İnan,  vəfasızdır gözəlləri tək,
Gündə min don geyən o nazlı mələk.
Ey könül,  ey mənim bircə həmdəmim,
Sonu olacaqmı bu dərdin,  qəmin?..

*14.04.1977*

## Təbəssümün bir hədiyyə

Sevgilim, arabir baş çəkməyə gəl,
Qoy yadlar deməsin kimsəsizəm mən.
Demirəm dünyanı özünlə gətir,
Şirin bir təbəssüm gətir mənə sən.

Qoy könül açılsın göyün üzü tək,
Kədər buludları uçub dağılsın.
Yenə bağ-bağçamız açsın gül-çiçək,
Mahnı sədaları göyə ucalsın.

## Sözümü söz etdilər

Bir söz dedim, söz etdilər,
Sinəm üstə köz etdilər,
Yarımla üz-göz etdilər.
Düşmən elə içimdəymiş.

Nə dedim ki, yara dəydi?
Yar həsrəti qəddim əydi.
Yarəb, mənim suçum nəydi?..
Çölüm kaldı, içim dəymiş.

Dərdlə gəzdim bu dünyanı,
Dərdə əlac edən hanı?..
Yeri-göyü, asimanı
Xəlq edən nə «biçimdəymiş»?..

## Sevgi nəğməsi

Nə gözəl gecədir: aylı-ulduzlu...
Lap nağıllardakı gecəyə oxşar.
Sənin söhbətlərin məzəli, duzlu.
Sənin söhbətlərin ruhumu oxşar.

Tutub üzümüzü göy qübbəsinə,
Göy otun üstündə uzanmışıq biz.
Səs verib suların axan səsinə,
Bir vurur nəbzimiz, ürəklərimiz.

Bizimdir oxunan sevgi nəğməsi,
Axan bulaqların şırıltısı da.
Bizimdir bu çəmən, o göy qübbəsi,
Uzaq ulduzların parıltısı da.

*1979*

## Məsnəvi

Hər vaxt köməksizə əlini uzat,
Ona kömək eylə, imdadına çat.

Bir zaman ömrümüz gedəcək bada,
Ancaq yaxşılıqlar qalar dünyada.

Çalış, yaxşılıqla olsun adın yad,
Çalış, təmiz qalsın həmişə o ad.

Yaxşı insanların adı qalacaq,
Hər yerdə hörmətlə çəkilər ancaq.

Pis insan köçsə də qoca dünyadan,
Nifrətlə çəkilir adı hər zaman.

Onunçün qoyulmuş məzar daşı da,
Yanacaq elinin qəzəb odunda.

*03.08.1971*

## BEYTLƏR

Artar aşiqlərin kədəri, qəmi,
Gəlib çatan zaman ayrılıq dəmi.

Aşiqi ayırsan nazlı dilbərdən,
Onunçün nə qalar?-Ürəksiz bədən.

Xəbislik bürüsə səni ey ürək,
Döyünmə sinəmdə, ömrümə sədd çək!

Yanmaqçün yaranmış ürək əzəldən,
Onun istisiylə qızınır bədən.

Sevgisiz ürəyə həmdəm- kədərdir.
Sevgisiz insanın ömrü hədərdir.

Ey könül, uzaq gəz qəmdən, qüssədən,
Nə qədər əzaba dözəcək bədən?

Ağıl dedi:Sevmə, sevgi bəla gətirər!
Ürək dedi:Sev, o mənə şəfa gətirər.

Həsrətin içində böyüyən yetim,
Xoşbəxt gələcəyə necə inansın?

Hər il yaşdan-yaşa düşdüm,
Mən həyatı başa düşdüm.

Mən dərdimi sənə dedim,
Nə vaxtacan sinə didim?

Çəkdim başıma eşq camını, könlüm alışdı.
Məst etdi məni, yandı bədən, həddini aşdı.

Gündə bir şeir yazan Bakıda peyda olur,
Gündə bir qarğa dönüb bülbülü-şeyda olur.

Vahidin qəbri önündə Əyyub hər gün baş əyər,
Çün, onun hər qəzəli mülkü-Süleymana dəyər!

Həmişə harasa tələsir insan,
Çatır ömür sona hiss olunmadan.

Kaş hər vaxt mehriban olaydı hamı,
Sevinc bürüyərdi bütün dünyanı.

1980

Ay da gözəllikdə sənlə yarışır,
Gül, əzizim, sənə gülmək yaraşır!

Sevgilim, səninlə keçən bir anı,
Dünyanın varına dəyişməz könül.

Ürək ağrıyar sən qəmlənən zaman,
Şirin gülüşündür könlümə dərman.

Əzazil, bir loğmanın dərmanıyla sağaldı,
Ona nicat verənin səhər canını aldı.

Od tutub yandı könül, oldu pərişan sənsiz,
Döndü zindana gözümdə bütün cahan sənsiz.

Gül, əzizim, qəm yaraşmır o qara gözlərinə,
Əyyubun dərdinə dünyada çarə gözlərin.

Sənsiz gözlərimə çökər qaranlıq,
Sanaram bu dünya zülmət gecədir.

Bir bülbül idim, mən bahar eşqiylə yaşardım,
Bir bülbül idim, şəninə min nəğmə qoşardım.

Yaşamaq çətindir dünyada, məncə,
Dərdə şərik olan dostlar olmasa.

Qınına çəkilmiş xəncər kimiyəm,
Əlim tiyəsində titrəyir mənim.

1980

## Bahar lövhəsi

Elə ki yurduma gələcək bahar,
Güllə örtüləcək bağlar, bağçalar.
Bülbül oxuyacaq öz nəğməsini.
Çoban qaldırcaq tütək səsini.
Üfüqdən boylanıb günəş güləcək,
Tarladan zəhmətkeş səsi gələcək.
Güldən dəstə tutub xoşbəxt balalar,
Rəngbərəng çələnglər toxuyacaqlar.

1979

## Təzad

Kimin dünya qədər böyükdü dərdi,
Kiminsə sevinci dünya qədərdi.
Həyat bir qayğısız saqiyə bənzər,
Kimə şərbət süzər, kiməsə zəhər.
Dünya başdan-başa təzaddı, təzad,
Bir ürək istərəm qüssədən azad.

1979

## Vətən

İstərəm ən uca zirvəyə qalxım,
Vətən torpağına doyunca baxım.
Ordan seyrə dalım axan çayları,
Xəzərdə oynaşan şən dalğaları.
Ruhumu oxşasın Xəzərim mənim,
Mənə ilham versin azad Vətənim!

Əzəldən vurğunam xoş əməllərə,
Yaradan əllərə, quran əllərə.
Hər yeni abadlıq, yeni tərəqqi
Könlümdən qoparır incə bir şərqi.
Şirin arzuların yolçusuyam mən,
Mənə ilham verən sənsən, ey Vətən!

## Sonda bəlli aqibət

Özümüzdən olan adam,
Hər söhbəti yalan adam,
Qanımızı içən adam,
Ürəyindən peyğəmbərlik
keçən adam,
Dinlə məni, yaxşı dinlə,
Hər işini görmə kinlə.

Dünya qəribə dünyadı,
Hələ gördüyün röyadı...
Dünyanın min havası var,
Hərə birin çalar gedər.
Öz başına olsa adam,
Hərc-mərclik baş alar gedər.

Tanrı yazıb alnımıza
Hərənin öz havasını,
Vədə tamam olan kimi,
Dəyiş deyər libasını.

Sonra başlar sorğu-sual,
Qıl körpüsü,  İnkir- Minkir.
Onda durub laldan da lal,
Eyləyərsən min bir fikir.

Imtahandan necə çıxım?
Işlətdiyim günahları,
Çəkdirdiyim o ahları
Kimlərin üstünə yıxım?

Yalan,  filan keçməyəcək,
O məclisdə oturanlar,
Qohum-qardaş seçməyəcək.
Bax,  onda tək qalacaqsan,
Cəhənnəmlik olacaqsan.
Cəhənnəmlik olacaqsan.

1990



# Mündəricat:

Duyğuların şəfəqləndiyi poeziya.................................3
Analar ..........................................................................16
Ata yurdum-Xanobam..................................................17
Bənövşə .........................................................................20
Yada sal məni ................................................................21
Bir qız ağlayırdı, nənə yaşında ....................................22
Ayrılıq ..........................................................................23
Xatirələr aynasında.......................................................24
Xəstəxanada ..................................................................25
Röya .............................................................................27
Sevgilim ........................................................................28
Hardan biləydim............................................................29
Qayıt .............................................................................31
Sevgilim ........................................................................32
Tələbə həyatım ..............................................................33
Yaşamağa dəyərmi heç...................................................34

Sən getdin........................................................................35
Yaman xətrimə dəymisən..............................................37
Ay ürək ..........................................................................38
Ürəyinə dəyən söz..........................................................39
Ayrılıq ............................................................................40
Sənsizlik..........................................................................41
Düşüb ..............................................................................42
Qəzəllər ..........................................................................43
Adsız şeirlər ....................................................................51
Rübailər...........................................................................58
Könül istəyi ....................................................................61
Yeni il .............................................................................62
Bahar ...............................................................................63
Keçdimi ..........................................................................64
İlk nəğmə........................................................................65
Məni ................................................................................66
Olar..................................................................................67
Səni sevən bir ürək var ...................................................68

İlk məhəbbət....................................................................69
Vəfasıza..........................................................................70
Qələmim...........................................................................71
Hardasa...........................................................................72
Qanlı 20 Yanvar...................................................................73
Güllə səsi........................................................................74
Eşqimin pərvanəsiyəm..............................................................75
Ey könül .........................................................................76
Təbəssümün bir hədiyyə............................................................77
Sözümü söz etdilər................................................................78
Sevgi nəğməsi.....................................................................79
Məsnəvi...........................................................................80
Beytlər...........................................................................81
Bahar lövhəsi.....................................................................85
Təzad ............................................................................85
Vətən.............................................................................86
Sonda bəlli aqibət................................................................87

**«Елм вя Тящсил» няшриййатынын директору:**
**професор Надир МЯММЯДЛИ**

**Дизайнер: Zahid Məmmədov**
**Техники редактор: Yadigar Bağırova**
**Korrektor: Xəyal Əlibəyli**

Йыьылмаьа верилмиш **31.01.2013.**
Чапа имзаланмыш **20.02.2013.**
Шярти чап вяряги **5,7.** Сифариш **№ 15.**
Каьыз форматы **70x100 1/32.** Тираж **500.**

Китаб **«Елм вя Тящсил»** няшриййат-полиграфийа
мцяссисясиндя сящифяляниб чап олунмушдур.
**E-mail: elm_ve_tehsil@box.az**
Тел: 497-16-32; 050-311-41-89
Цнван: Бакы, Ичяришящяр, 3-ъц Магомайев дюнэяси 8/4.